PAMBIQ ƏKİNLƏRİNDƏ TORPAQLARI EROZİYADAN QORUMALI

R.Ə.TAĞIYEV, Ə.R.CABBAROV, kənd təsərrüfatı elmləri namizədləri
Azərbaycan Elmi Tədqiqat Pambıqçılıq İnstitutu

Torpaq - maddi nemətlər bolluğu yaradılmasında əvəzolunmaz sərvətdir. Kənd təsərrüfatının səmərəliliyi torpaqlardan düzgün istifadə olunmasından, onun münbitliyinin bərpa olunması və onun qorunub saxlanmasından asılıdır. Mütəxəssislərin araşdırmaları göstərir ki, respublikamızın pambıqçılıq bölgələrində torpaqlarda su (irriqasiya) eroziya prosesi gedir. Bu proses mailliyi olan, cərgəarası becərilən (pambıq, çuğundur, qarğıdalı və s.) əkinlərdə istifadə olunan torpaqlarda daha sürətli gedir.

Eroziya prosesi nəticəsində torpaqların su-fiziki və kimyəvi xüsusiyyətləri pozulur. Çınqıllı, qumlu, qumsal torpaq qatları səthə yaxın olduqda bu proses daha qorxuludur. Çünki eroziyanın qarşısı vaxtında alınmasa torpaq əkin üçün yararsız hala düşə bilər.

Uzunmüddətli tədqiqatlarla müəyyən edilmişdir ki, maillik olan ərazilərdə torpaqlar düzgün becərilmədikdə su eroziyası vasitəsilə torpağın üst münbit qatından il ərzində hektardan 100-150 ton torpaq yuyulur. Bu miqdar torpaq özü ilə 100 kq və daha çox qida maddələri (azot, fosfor, kalium və s.) pambıq sahələrində şırımların baş tərəfindən şırımın eni hər tərəfdən 3-4 sm, dibdən isə 2-3 sm torpaq yuyulub aparılır. Beləliklə də qida maddələrinin itkisi ilə yanaşı, nitrit və nitratların sahədən çıxarılması ətraf mühiti, xüsusilə də şirin su hövzələrinə axıdılıb onu çirkləndirir. Eroziya gedən torpaqlarda qida maddələrinə daha çox tələbkar olan pambıq və digər bitkilər yaxşı inkişaf etmir. Pambıq bitkisinin məhsuldarlığı eroziyaya uğramayan torpaqlara nisbətən 30-35% azalır və keyfiyyəti pisləşir. Ona görə də torpaqlarda gedən belə ziyanlı proseslərin qarşısını almaq, münbitliyi artırmaq kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltmək fermer və digər torpaq sahiblərinin daima diqqət mərkəzində olmalıdır. Suvarma və şiddətli yağışlar eroziyası Mil-Qarabağ, Şirvan və digər bölgələrin quruluşsuz, mailliyi olan torpaqlarında aydın nəzərə çarpır. Belə torpaq sahələrində əsas (dondurma) şumu mailliyə köndələn istiqamətdə aparılmalıdır. Çınqıllı və qumsal qata qədər şumlamaq lazımdır.

Torpağı səpin qabağı «Şirvan» və ya «Ziq-zaq» mala vasitəsilə yumşaldılmalı hamarlanmalı və səpinə yaxşı hazırlamaq lazımdır.

Arat, səpsuvar və vegetasiya suvarmalarında eroziyanın qarşısını almaq məqsədilə az su axımı ilə hopdurma qaydasında aparılmalı, maillik 2-3 dərəcə və çox olan sahələrdə suvarma şırımları şəraitə uyğun, uzunluğunu, 100-150 metr saxlamaqla bərabər onları dayaz (10-12 sm) açmalı şırıma 0,07 l/san normada, onu tədricən 0, 1 l/san qədər artırmaq, maillik 4 dərəcə olarsa şırımı 100 m götürüb ora 0, 1-0,15 l/san su axını buraxmaq lazımdır. Maillik az – 0,15-0,2 dərəcə olduqda şırıma buraxılan su axını 0,6-0,8 və ya 100-150 m şırım uzunluğunda olduqda şırıma buraxılan suyu dəyişən normada artırmaq lazımdır. Ayrı-ayrı hallarda torpağın qurluşundan asılı olaraq suvarmanı kultivatorun izi ilə də aparmaq olar.

Torpaq qatı qalın olan, ağır mexaniki tərkibli torpaqlarda şırımların dibindən dərin (18-20 sm) dərinləşdirici yarıqlar açmalı. Suyu torpağa çox hopdurmaq məqsədilə şırımlara suyu az axınla buraxmaq lazımdır. Yüngül mexaniki tərkibli torpaqlarda bitki sıxlığını və azot kübrəsinin illik normasını 15-20% artırmaq, irriqasiya eroziyasına uğramış torpaqlarda pambığın yemləmələri 3-4 əsas yarpaqları əmələ gəlmə fazasında cərgələrdən 15-18 sm, çiçəkləmədə isə 20-22 sm aralı verilməlidir. Bu göstərilən qaydada yemləmə verilməsi qida elementlərinin yuyulmasını azaldır və mineral kübrələrin bitkilər tərəfindən mənimsənilməsini yaxşılaşdırır. Eroziyaya uğramış torpaqlara amoniumlu və nitratlı azot kübrəsindən amonium şorası formalı kübrələrinin verilməsi məqsədə uyğundur.

Maillik çox olan sahələri suvardıqda şırımın uzunluğundan asılı olaraq əvvəlcə az 0,6 l/san, şırımın yarıdan çoxu suvarıldıqda

həmin su axımını 0,8-1,0 l/san artırmaqla dəyişən axımla aparmalı, suyun sahədən kənara çıxmasına yol verilməməlidir.

Mürəkkəb relyefli sahələrdə yağış yağdırma, damcı üsulundan, su axımının nizamlanmasında münasib elastiki və yarım elastiki borulardan istifadə edilməlidir.

Torpaqların eroziyadan qorunmasında növbəli əkin sisteminin faydalı omlası danılmazdır. Növbəli əkin sistemində yoncanın böyük əhəmiyyəti vardır. Eroziyaya uğrayan torpaqlarda qısa dövriyyəli-pambıq-saçaqlı kök sisteminə malik olan dənli taxıl, paxlalı-və xüsusilə də pambıq yonca növbəli əkin sxemi tətbiqini tövsiyə etmək məqsədyönlüdür. Eroziya prosesi gedən torpaqlarda 3 il yonca, 3 il pambıq və digər məqsədə uyğun bitkilər becərilməlidir. Yoncalıq şumlandıqdan 2 il sonra becərilən bitkilərə əsas şum qabağı hektara 20-25 ton peyin, kasıb torpaqlarda isə onun normasını artırıb 30-40 ton/ha verilməsi səmərəlidir. Eroziyaya uğrayan torpaqlarda bitki qalıqlarının (quzapayı, kövşən və s.) sahədən kənara çıxarılması və yandırılmasına yol verilməməlidir.

Eroziyanın qarşısının alınmasında bitki qalıqlarının xırdalanıb şum altına verilməsi səmərəlidir. Torpaqların eroziyaya uğramasının qarşısının alınmasında təsirli vasitələrdən biri də kimyəvi üsuldur. Bunun üçün PQY qurğusunun köməyilə birinci vegetasiya suvarması qabağı şırımların dibinə «K-9» tipli polimer verilir. Bu polimer torpağın strukturasını yaxşılaşdırır və eroziya prosesini saxlayır və qida maddələrinin torpaqdan yuyulmasının qarşısını alır. Torpağın mailliyi 2 dərəcəyə qədər olan sahələrdə polimerdən hektara 6 kq, 2-4 dərəcə olanda 12 kq və maillik 4-6 dərəcə olduqda isə norma artırılıb hektara 24 kq polimer sərf edilir. Çoxillik elmi araşdırmalar göstərir ki, yuyulmuş torpaqlara hektara 200-250 kq mineral kübrənin verilməsi xam pambıq məhsulunu mexaniki tərkibcə yüngül, yeraltı suları dərində olan topaqlarda bitki sıxlığı 110-115 min. Sular nisbətən dayazda (3,0-3,5 m) olan torpaqlarda bitki sıxlığı 95-100 min ədəd saxlamaqla birinci halda suvarma 900-1100 ha/m^3 normada tam tarla su tutumu aşağı həddə görə 70-70-65%, ikinci halda isə zəif şorlaşmış və kollektor-dren şəbəkəsi olan torpaqlarda 1000-1200 ha/m^3 normada və 70-75-65% rejimdə saxlamaqla suvarma arası müddəti qısaltmaq məqsədə uyğundur. Yuxarıda göstərilən tədbirlərin təsərrüfatlarda tədbiqi torpaqların eroziyadan qorunmasında, münbitliyin saxlanıb, bərpa olunmasında, artırılmasında pambıq və digər cərgəarası becərilən kənd təsərrüfatı bitkilərindən yüksək məhsul yetişdirilməsində fermerlərə, digər torpaq sahələrinə kömək edə bilər.

DUTMA YEMIŞ SORTLARI, DUTMA ÜSULUNUN MAHIYYƏTI. ABŞERONDA BU ÜSULUN TƏTBIQI

S.R. HƏSƏNOV, biologiya elmləri namizədi, Ç. T. NAMAZOVA, elmi işçi
Azərbaycan MEA Genetik Ehtiyatlar İnstitutu

Yemiş isti sevən bitkidir, kontinental iqlim şəraitinə malik olan bölgələrdə açıq və qorunan sahələrdə geniş becərilir. Quru iqlim şəraiti olan yerlərdə yüksək şəkərli və dadlı olur. Yemiş bitkisinin yaxşı inkişafı üçün normal temperatura 25-30 ^{0}S-dir. Temperaturanın 12-15 ^{0}S-ə düşməsi, bitkilərdə inkişafı dayandırır, çiçəklər tökülür. Bu bitki işığa və rütubətə qarşı tələbkardır. Eyni zamanda quraqlığa qarşı da davamlıdır. Quraqlıq zamanı meyvələr nisbətən balaca və şirin olur. Yemiş bitkisi yumşaq və münbit torpaqlara qarşı da tələbkardır. Bitkilərin gövdələri lian formasında olur uzunluqları 2-3-m-ə çatır, yarpaqları iridir, böyrək şəkilli və ürək şəkillidir, növbə ilə düzülür. Çiçəkləri iridir, sarı rənglidir və bir cinslidir. Həşaratlarla tozlanır. Meyvələri şarşəkilli, ellipsvari, silindrik, yastılaşmış, uzunsov formalarda olub çoxtoxumludur. Çəkisi 0,2-20 kq olur.

Yemişin meyvələrinin ləti kartof rəngli, ağ, çəhrayı, müxtəlif intensivli yaşıl rənglərdə olur. Bəzi sortlarının meyvələri yeyilən